Memorandum ADA Universitetində yeni yaradılmış fakültə üçün müasir tələblərə cavab verən tədris proqramlarının hazırlanmasını, yüksək ixtisaslı professor-müəllim kadrların yetişdirilməsini, tələbə və müəllim mübadiləsini, birgə konfrans-seminarların təşkilini nəzərdə tutur.

İmzalama mərasimində iştirak edən təhsil naziri Mikayıl Cabbarov ADA Universitetində yaradılmış fakültənin təhsilin idarə edilməsi sahəsində ixtisaslı kadrların hazırlanması, ölkəmizdə "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın məqsədlərinə nail olunması işinə təkan verəcəyinə inandığını bildirib.

Mərasimdə vurğulanıb ki, Təhsil Nazirliyi tərəfindən dəstəklənən bu əməkdaşlıq ölkəmizdə təhsil sahəsində aparılan islahatlara öz müsbət təsirini göstərəcək.

Qeyd edək ki, fevralın 17-19-da Miçiqan Universitetinin Təhsil Kollecinin dekanı Donald Heller və Beynəlxalq Proqramlar direktoru Todd Drummondun iştirakı ilə ADA Universitetinin rəhbərliyi, müəllim və professorları arasında görüş keçirilib, ikitərəfli əməkdaşlıq və gələcək addımlar müzakirə olunub. Görüşdə ADA Universitetinin rektoru Hafiz Paşayev təhsil və tədqiqat sahələrində beynəlxalq əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayaraq qeyd edib ki, bu əməkdaşlıq ikili dərəcə proqramlarının və birgə elmi araşdırmaların həyata keçirilməsinə yönəlməlidir.

Səfər çərçivəsində Bakı məktəblərinin müəllim və direktorları dekan Donald Hellerin "Müasir təhsilin meylləri" mövzusunda mühazirəsini dinləyib. Qonaqlar ADA Universitenindəki həmkarları ilə birgə 132-134 nömrəli Təhsil Kompleksini ziyarət edib, müəllim heyəti ilə görüşlər keçirib.